# ETNİK TERROR SİYASİ MƏQSƏDLƏRƏ ÇATMAĞIN QEYRİ-HUMANİST YOLU KİMİ

**E.Ə.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***e.mammadof.mail.ru***

*Müasir dünyada milli və fərdi hüquqların təmin edilməsi uğrunda mübarizənin bir sıra yolları vardır. İnsan təfəkküründə mübarizə metodikasının ən optimal variantı siyasi və iqtisadi metodlardır. Son dövrlər vətəndaş cəmiyyətlərinin inkişafı qeyri-hökumət təşkilatlarının da rolunu artırmışdır. Ancaq təəssüf ki, heç də hamı məqsədlərə çatmağın sivil yollarına müraciət etmir. Bir sıra hallarda isə mübarizənin ən iyrənc vasitəsi olan terror gündəmə daxil olur. Terrordan müxtəlif ideoloji cəbhələrdə, xüsusən etnik hüquqların bərpası adı altında istifadə edirlər. Buna görə, elmi aktuallığı nəzərə alaraq məqalədə etnik terrorun səbəb və nəticələrinin araşdırılmasına çalışılmışdır.*

Etnik terror bir etnik qrupun etnik təmələ söykənən iddiasını reallaşdırmaq üçün həyata keçirdiyi şüurlu zorakılıq fəaliyyəti kimi qiymətləndirilə bilər. Xüsusilə, son illərdə getdikcə yayılan etnik terror, digər terror tiplərindən fərqli bəzi xüsusiyyətlər daşımaqda və onunla mübarizə bu cür terror hərəkətləri ilə qarşı-qarşıya qalan dövlətlər üçün əhəmiyyətli bir vəzifəyə çevrilməkdədir. Ümumiyyətlə, etnik kimliyə söykənən etnik terrorun son məqsədi dövlət yaratmaqdan ibarətdir. Terrora qarşı ətraflı düşünülməmiş sərt tədbirlərin görülməsi bir çox hallarda terrorist qrupların mənfəətlərinə uyğun gəlir. Lakin dövlətin daha mülayim bir siyasət izləməsi də xalq arasında terrorun nəticə əldə etməsi görüntüsünün yaranmasına səbəb olmaqdadır. Etnik terror ilə mübarizə apararkən günahsız insanlara zərər verməkdən qaçılmalı, demokratikləşməyə əhəmiyyət verilməli, icra edilən mübarizə tədbirləri düzgün izah edilməlidir.

Terrorizm, tarixdə həmişə var olmuş günümüzə qədər özünü hiss etdirmiş ictimai bir faktdır. Latınca "terrere"dən əmələ gəlmiş cəmiyyətə qorxu salmaq, cəmiyyəti dəhşətə salmaq mənasını daşıyır. Terrorun məqsədi hədəflərə çatmaq üçün bir qorxu iqlimi yaratmaq, cəmiyyətdə və fərdlərdə qorxu, çaxnaşma və ümidsizlik mühiti formalaşdıraraq dövlətə olan etibarı ortadan qaldırmaq, ictimai birliyi pozmaq və bu yolla ictimai nizamı dağıdaraq istədiyi hədəflərə çatmaqdır (8, 240). Paradoksal hal odur ki, ümumbəşəri tərəqqiyə, sivilizasiyaya qarşı yönəldilmiş terror özü bu sivilizasiyanın məhsuludur. Elmi-texniki inkişaf, ən müasir silah növlərinin kəşfi özündə potensial olaraq mənfi faktorları da saxlayır. Təsadüfi deyildi ki, atom fizikasının yaradıcıları A.Eynşteyn, N.Bor, Oppenqeymer, Frederik J.Küri və başqaları atom silahının işlədilməsi əleyhinə, silah istehsalı əleyhinə ən kəskin çıxış edən adamlar idilər. Bəli, elmi-texniki tərəqqi sülhə xidmət etdiyi kimi, müharibəyə də xidmət edə bilər (4).

İkinci dünya müharibəsindən sonra bəşəriyyətin bütün mütərəqqi qüvvələri yaranmış təhlükələri görərək onlara qarşı mübarizə aparmağın yeni formalarını axtar-

dılar. Bununla bağlı beynəlxalq hüquq normaları yaradıldı. Dünyanın bütün ölkələrinin bu normalara riayət etməsi uğrunda mübarizəsi başlandı. Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və s. beynəlxalq qurumlar yaradıldı. Bir sözlə, yeni dünya müharibəsinə qarşı bütün qüvvələr səfərbər edildi. Lakin bəşəriyyət müharibəyə qarşı mübarizə formaları axtardığı bir vaxtda yeni bir təhlükə mənbəyi ortaya çıxdı. İndi müasir silahların təkcə dövlətlər tərəfindən deyil, həm də ayrı-ayrı şəxslər və qruplaşmalar tərəfindən ələ keçirilərək istifadə olunması ən böyük təhlükəyə çevrilmişdir. Bu, ən müasir texnika ilə təchiz olunmuş beynəlxalq terrordur. Onun ən spesifik və ən mənfi cəhəti bəşəriyyətin neçə əsrlər ərzində əldə etmiş olduğu sivil normalara, beynəlxalq hüququn tələblərinə, mənəvi və dini prinsiplərə məhəl qoymamasıdır.

Dövrümüzdə terror yalnız bir ölkənin və ya bir bölgənin qarşılaşdığı problem deyil, dünyanın az qala bütün dövlətlərinin müəyyən qədər qarşılaşdıqları həqiqətə çevrilmişdir. Ümumiyyətlə, ideoloji təmələ söykənən terror əməliyyatları bəzən də ictimai, siyasi, dini və etnik xüsusiyyətlərə də malik olurlar. Etnik mahiyyətli terror hadisələri, xüsusilə 1990-cı illərin ikinci yarısından etibarən dünyada getdikcə daha çox görülən bir terror növü olmuş və ortaya çıxdığı ölkələrdə digər terror formaları ilə müqayisə edildiyində daha çox şiddət ehtiva etmişdir.

Etnik terror etnik azlıq anlayışı ilə yaxın bir əlaqəyə malikdir. Etnik terrorun səbəblərini anlamaq və bu cür terror hərəkətlərinin qarşısının alınması yollarını düzgün təyin edə bilmək üçün etnik azlıq anlayışının təyin olunması məqsədə uyğundur. Etnik azlıq bir qrup insanın dominant qrupdan dil, irq, millət, din və mədəni birlik olaraq diqqətə çarpan bir şəkildə ayrılması şəklində müəyyən edilə bilər (12, 83).

Etnik terrorun digər terror tipləri ilə eyniləşdirilməsi əksər hallarda terrora qarşı tətbiq olunacaq tədbirlərin səhv seçilməsi və bunun müvəffəqiyyətsizliyə uğramasına səbəb olmaqdadır. Halbuki digər terror fəaliyyətlərindən bəziləri rejimin dəyişməsini istəyir, bir qismi isə inqilabi hərəkətlərdən doğurlar. Bu tiplərlə etnik terror arasında çox az ortaq nöqtə vardır. Bununla əlaqədar etnik terrora qarşı fərqli siyasətin yürüdülməsi lazımdır (6, 156).

Unutmaq lazım deyil ki, etnik terror təşkilatlarının əsas məqsədi öz etnik qrupuna təsir etmək və onun daha çox üzvünü öz sırasına daxil etməkdir. Şübhəsiz etnik terror qrupları siyasi iqtidarlara da təsir etməyə cəhd göstərirlər. Bəzi araşdırmaçıların da ifadə etdiyi kimi etnik qarşıdurmaların əsl səbəbi əksər hallarda siyasi güc əldə etməkdir (5, 16). Başqa bir mövqeyə görə isə siyasi güc əldə etmək, ümumiyyətlə, ikinci məqsəddir. Lakin terror yolu ilə yeni bir dövlət qurmanın olduqca çətin olması və terror qruplarının da bunu bilməsi, terrorun yeni bir dövlət qurmaqdan çox siyasi təsir imkanı əldə etmənin vasitəsi olaraq istifadə edildiyini nümayiş etdirməkdədir.

Etnik terrorun başqa bir diqqətə çarpan xüsusiyyəti də budur ki, terror qrupları bir çox hallarda silahsız adam və qrupları hədəf alırlar. Etnik terrorun, ümumiyyətlə, müəyyən bir etnik kimlik üçün mübarizə apardığı düşünülə bilər. Lakin etnik kimliyin nə olduğu çox vaxt tam olaraq aydın deyildir.

Etnik terror etnik kimiliyi bəzən bir bölgə, qəbilə, məzhəb, tayfa üçün istifadə edərkən, bəzən də bir dövlət və ya millət olma iddiası üçün istifadə etməkdədir. Lakin ümumiyyətlə, etnik terror qruplarının böyük bir qismi millət olma iddialarını ayrı bir dilin varlığına bağlayırlar.

Etnik terrorun mövcudluğu və varlığının davam etməsi əksərən separatçı ideyalogiyaların mövcudluğu ilə bağlıdır. Separatçılıq hərəkatları üçün isə əsas şərt

etnik qrup daxilində etnik eyniyyətin güclənməsi, digərlərinə qarşı isə bu fərqin hiss edilməsidir (9,427). Etnik terrorun pozmağa çalışdığı bir başqa quruluş isə demokratik nizamdır. Demokratik bir nizamda fərqli etnik ünsürlərin birlikdə yaşamalarını təmin edəcək zəminin formalaşması mümkündür. Zorakılıq hərəkətləri ilə demokratik təşkilatların çalışmasına maneə törədərək dominant etnik qrupun, azlığın haqqlarını qorumadığı imicini verməyə çalışılar.

Etnik terrorun qarşısını almaq üçün fərqli üsullardan istifadə edilməkdədir. Bu üsullar başlıca olaraq iki qrupa ayrılır. Bunlardan ilki terroristçulara qarşı zor tətbiq etmək, digəri isə siyasi uzlaşma yolunu seçmək və güzəştlərə getməkdir (10, 202). Etnik terrorla mübarizədə istifadə edilən bu üsulların hər birinin üstün və zəif cəhətləri vardır.

Göstərilən üsullardan biri terrora qarşı sərt hüquqi tədbirlər görməkdir. Alınacaq sərt hüquqi tədbirlər terrordan insanları çəkindirməyə yönəlmişdir. Fərdlər qanunlara zidd hərəkətlər müqabilində cəzalandırılacaqlarını düşünərək fəaliyyətlərində qanunu əsas alırlar. Alınan bu cür tədbirlərin müvəffəqiyyətli olması üçün terrorçuların cəzalandırılmaları lazımdır.

Beləliklə, fərdlər dövlətin zorakılığa əl atanları cəzalandırdığını görməlidirlər. Dövlətin bu istiqamətdəki müvəffəqiyyətinin də düzgün təbliğ edilməsi lazımdır. Bu istiqamətdə əldə edilən müvəffəqiyyət düzgün təbliğ edildiyi zaman kütlələr üzərində istənən müsbət təsiri göstərə bilər.

Digər tərəfdən demokratikləşmə istiqamətində atılacaq addımlar və tətbiq olunan siyasət uzun perspektivdə əhəmiyyətli müsbət nəticələrin əldə edilməsini təmin edə bilər. Demokratikləşmə ilə əlaqədar siyasi kurs terrorçu qrupların getdikcə öz xalqlarından gələn dəstəyi itirmələrinə səbəb olacaq. Demokratikləşmə fərqli etnik qrupların bir yerdə yaşamalarını təmin edə bilər (7, 341).

Bir ölkədə yaşanan etnik terror hadisələrində xarici ölkələrin də dəstəyi varsa terrora qarşı tədbir görmək kompleks şəklə gəlməkdədir. Terrorun belə bir xüsusiyyət göstərməsi halında yuxarıda açıqlanan tədbirlərə əlavə olaraq terrora dəstək verən ölkələrə qarşı hərbi gücdən istifadə etmək, bəzi sanksiyalar tətbiq etmək nəticə verə bilər.

Etnik terrorla mübarizə apararkən terrora qarşı həssas olan beynəlxalq təşkilatların dəstəyinin təmin edilməsi, xüsusilə böyük bir təsir imkanı meydana gətirə bilər. Bundan başqa, digər dövlətlərlə kəşfiyyat və digər sahələrdə əməkdaşlıq xarici dəstəyə malik olan xarici mənşəli etnik terroru önləmədə təsirli ola bilər.

Etnik terror, ümumiyyətlə, ya müstəqil bir dövlət qurma məqsədinə yönəlir və ya etnik azlığa fərqli bir statusun verilməsini tələb edir. Müstəqil bir dövlət qurmanın terror yolu ilə reallaşdırılmasının mümkün olmadığının terror təşkilatları tərəfindən də bilinməsinə baxmayaraq ümumi proseslərə təsir baxımından ondan imtina da edilmir.

Etnik terror cəmiyyətdə "biz" və "onlar" ayrı-seçkiliyini reallaşdırmaq istəyir. Dövlətlər bəzən terrorun qarşısının alınması zamanı tətbiq etdiyi sərt tədbirlərə bənzər bir nəticənin reallaşmasına özləri də bilmədən kömək etməkdədirlər. Terrora qarşı müvafiq şəkildə çıxılmaması isə dövlətin gücünün qiymətləndirilməməsinə gətirirb çıxara bilir ki, bu vəziyyət yenə terror təşkilatlarının məqsədlərinə xidmət edə bilir.

Etnik terror ilə mübarizənin əhəmiyyətli bir fəaliyyət istiqaməti olması onun qurulmasında elmi yanaşmaların nəzərə alınmasını tələb edir. Şübhəsiz, dövlətlərdə etnik ayrı-seçkilikçiliyə səbəb olan ictimai, siyasi, iqtisadi və mədəni sahələrdəki problemlərin ortadan qaldırılması lazımdır. Lakin belə bir ayrı-seçkilikçiliyin olmaması

halında belə etnik terror bir problem olaraq meydana çıxa bilir. Buna misal olaraq Azərbaycanda ermənilərin törətdiyi qətliamları və terror aktlarını misal gətirmək olar.

Bu kimi vəziyyətlərdə terrora qarşı sərt və sarsıdıcı tədbirlərin həyata keçirilməsi zamanı istənilən nəticənin alınması üçün bu siyasətin dayanıqlılıqla icra edilməsi lazımdır. Zorakılığa bir mübarizə vasitəsi kimi müraciət edənlərin, qanunların nəzərdə tutduğu şəkildə cəzalandırılmaları bu istiqamətdəki meylin ortadan qalxmasını təmin edəcək. Bu cür tədbirlər tətbiq olunarkən, xüsusilə hüquqa zidd sui-istifadə hallarından yayınmaq lazımdır. Çünki hər hansısa bir məmurun sui-istifadəsi dövlətin mənafelərinin təmin edilməməsi deməkdir.

İstənilən müharibədə olduğu kimi terrorla mübarizədə də o vaxt qələbə çalmaq olar ki, qorxu və həyəcan yerinə insanların hərəkətlərində düşmənə qarşı nifrət və qəzəb hakim kəsilsin. Düzdür, dünyada terror birmənalı qarşılanmır. Belə ki, bəziləri bunu həqiqətən də insanlığa qarşı terror hadisəsi, din yolunda mücadilə, başqaları Vətən naminə fədakarlıq, digər bir qüvvə isə bunu dünyada demokratiyanın bərqərar olması üçün aparılan fəaliyyət sahəsi hesab edirlər.

Müasir dünyanın maraqlar üzərində qurulduğu hamıya məlumdur. İlk öncə terrorizmin sosial bazasını məhv etmək lazımdır. Terroristlər öz etnik qrupları arasında qəhrəman kimi deyil, konkret olaraq düşmən kimi qəbul edilməlidirlər. Zəruri siyasi şərtlər yaratmaq lazımdır ki, terroristləri "yetişdirən" xalq, etnik qrup onları lənətləsin və ədalətə təslim etsin.

Terrorizm özünün taktikasının mükəmməlləşdirilməsi nöqteyi-nəzərindən durmadan inkişaf edir. Əgər bir şəxs başqa insanları girov götürürsə, deməli onların azadlığa buraxılması müqabilində hökumətdən nəsə almağa çalışır. Tutalım ki, hökumət onun şərtləri ilə razılaşır. Lakin konkret tələblər irəli sürülmürsə, onda deməli "vaxtından əvvəl ölüm" situasiyası yaranır ki, bunun da qarşısını almaq çox çətindir. Terroristlər əvvəlcə girovları ələ keçirir, onlara işgəncələr verir və sonda onlarla birlikdə həlak olurlar. Burada, ilk növbədə, zəruri qabaqlayıcı tədbirlər və ümumi əhalinin hazırlığı gərəkdir.

## ƏDƏBİYYAT


1. Абдулатипов Р. Экономические конфликты в СНГ: национальные механизмы разрешения// Социальный конфликт, Калуга, 2000, №1, с. 3-17
2. Авксентьев В.А. Этническая конфликтология: проблемы становления. Библиотека учебной и научной литературы www. i-u.ru
3. Блищенко В.И., Солнцева М.М. Региональные конфликты и международное право. М.: Городец, 2005, 496с.
4. Перепелица Г.Э. Этнополитические факторы межнациональных конфликтов // Социальный конфликт, Калуга: 2000, № 1, с. 65-69
5. BOWEN, John, (1997), "Ethnic Conflict", Current, № 389, s.16-21.
6. BYMAN, Daniel, (1998), "The Logic of Ethnic Terrorism", Studies in Conflict and Terrorism, c. 21, no. 2, s. 149-169.
7. COHEN, Ronald, (1994), "The State and Multyethnicity", Cross-Cultural Research, c. 28. no. 4, ss. 328-352.
8. KUPER, Jessica, (1987), Political Science and political Theory, Routledge and Kegan Paul, London.
9. McCORD, Arline ve McCORD, William, (1979), "Ethnic Autonomy: A Socio-historical Synthesis", Etnic Authonomy: Comperative Dynamics, ed. Raymond hall Pergamon Press, New York.

10. PLANO, Jack C. ve OLTON. Roy, (1988), The International Relations Dictionary, Fourth Edition, Longman, Santa Barbara.
11. POSEN, Barry, (1993), "The Security Dilemma and Ethnic Conflict", Survival, c. 35, № 1, s. 27-47.
12. SIMON, Douglas W., "Violent Conflict in the International System of the 1990s", New Thinking and Developments in International Politics, ed. Neal Riemer, The Miller Center, New York, s. 79-106.

## ЭТНИЧЕСКИЙ ТЕРРОР КАК НЕГУМАННЫЙ ПУТЬ ДОСТИЖЕНИЯ ПОЛИТИЧЕСКИХ ЦЕЛЕЙ

**Э.А.МАМЕДОВ**

**РЕЗЮМЕ**

Процесс обретения независимости и достижение этнических целей является одним из важнейших элементов о современной истории и общественной деятельности. Для достижения этнических целей определенных этносов используются разные методы и формы деятельности. Самым негуманным методом в этом направлении является использование этнического террора, о котором идет речь в данной статье. В статье анализируется процесс возникновения этнического террора. В конце статьи автор предлагает несколько методов борьбы с этническим террором в разных аспектах.

## THE ETHNIC TERROR AS AN INHUMAN WAY OF ACHIEVING POLITICAL PURPOSES

**E.A.MAMMADOV**

**SUMMARY**

The process of gaining independence and achieving ethnic purposes is one of the important elements of modern history and public activities. Different activity methods and forms are applied to achieve ethnic purposes of certain ethnoses. The presented article considers the use of ethnic terror as the most inhuman method in this direction and analyzes the process of emergence of ethnic terror. At the end of the article, the author offers some methods of struggle against ethnic terror in different aspects.